# Ishaq-Yaqub






YARADILIŞ 23:1-13






YARADILIŞ 23:14-20


ELİEZER, ƏN SADİQ NÖKƏRİM, MƏNƏ DİQQƏT-LƏ QULAQ AS.
MƏNİM 130 YAŞIM VAR VƏ TEZLİKLƏ DÜNYAMI DƏYİŞƏCƏYƏM.
OĞLUM İSHAQ İSƏ HƏLƏ EVLƏN-MƏYİB.
AND İÇ Kİ, OĞLUMA KƏNANLILARIN QIZLARINDAN ARVAD ALMAYACAQSAN.
MƏNİM ÖLKƏMƏ, QOHUMLARIMIN YANINA GEDİB OĞLUM İSHAQ ÜÇÜN ARVAD ALACAQSAN.
BƏLKƏ QIZ MƏNİMLƏ BİRGƏ BU ÖLKƏYƏ GƏLMƏYƏ RAZI OLMADI?
ONDA OĞLUNU SƏNİN ÇIXDIĞIN ÖLKƏYƏ APARIMMI?
ALLAH AND İÇƏRƏK BU TORPAĞI MƏNƏ VƏ MƏNİM NƏSLİMƏ VERDİ. RƏBB ÖZÜ YOLUNU UĞURLU EDƏCƏK.
ƏGƏR O QADIN SƏNİNLƏ GƏLMƏK İSTƏMƏSƏ, SƏN BU ANDDAN AZAD OLURSAN.






YARADILIŞ 24:10-17


AĞAM, BUYUR İÇ. DƏVƏLƏRİN ÜÇÜN DƏ SU ÇƏKİM, İÇİB DOYSUNLAR.
EY İBRAHİMİN ALLAHI, SƏN DUA-LARIMIZA CAVAB VERDİN!
MƏNƏ DE GÖRÜM, SƏN KİMİN QIZISAN? ATANIN EVİNDƏ BİZƏ GECƏ QALMAQ ÜÇÜN YER TAPILARMI?
MƏN MİLKANIN NAXORA DOĞDUĞU BETUELİN QIZIYAM.
AĞAM İBRAHİMİN RƏBBİ ALLAHA ŞÜKÜR OLSUN.
SƏN MƏNİ DÜZ AĞAMIN QOHUMLARININ EVİNƏ GƏTİRİB ÇIXARTDIN.
NAXOR İBRAHİMİN QARDAŞI, İSHAQLA RİVQA İSƏ ƏMİ UŞAQLARI İDİ.





YARADILIŞ 24:28-33




YARADILIŞ 24:34-49


BU, RƏBDƏNDİR.
QIZIM RİVQA SİZİNLƏ GEDİB AĞANIZIN OĞLUNA GƏLİN OLA BİLƏR.
İBRAHİMƏ UĞUR VERDİYİ ÜÇÜN ALLAHIN ADINA ŞÜKÜRLƏR OLSUN.
ELIEZER VƏ NÖKƏRLƏR RİVQA VƏ ONUN AİLƏSİ ÜÇÜN QİYMƏTLİ HƏDİYYƏLƏR GƏTİRDİLƏR.
İNDİ YEYİB-İÇƏCƏYƏM VƏ EVİNİZDƏ GECƏ-LƏYƏCƏYƏM.


MƏN GETMƏLİYƏM. YOLUM UZAQDIR.
QOY QIZ BİZİMLƏ HEÇ OLMASA ON GÜN QALSIN, SONRA GEDƏR.
İNDİ Kİ RƏBB MƏNƏ YOL AÇDI, MƏNİ GECİKDİRMƏYİN, BURAXIN AĞAMIN YANINA GEDİM.
QOY QIZI ÇAĞIRIB ÖZ DİLİNDƏN EŞİDƏK.
BU ADAMLA BELƏ TEZ GEDİRSƏNMİ?
ONUNLA... ƏRİMİN YANINA GEDİRƏM.
MİNLƏRLƏ, ON MİNLƏRLƏ ÖVLADA ANA OLASAN!
QOY NƏSLİN YAĞILARIN YURDUNA SAHİB OLSUN!
SƏN TƏK OLMAYACAQSAN. BU ADAMLAR SƏNİNLƏ BİRGƏ GEDƏCƏKLƏR.
BELƏLİKLƏ, ELİEZER AĞASI İBRAHİMİN VƏ İSHAQIN YANINA YOLA DÜŞDÜ.
YARADILIŞ 24:54-61






YARADILIŞ 24:62-67




YARADILIŞ 25:1-10


RİVQA SONSUZ İDİ, ANCAQ İSHAQ ARVADI ÜÇÜN RƏBBƏ YALVARANDAN SONRA O, HAMİLƏ OLDU.
RİVQANIN BƏTNİNDƏKİ UŞAQLAR ÇARPIŞMAĞA BAŞLADILAR. O DA BU BARƏDƏ RƏBDƏN SORUŞMAĞA GETDİ.
BƏNTİMDƏ NƏ BAŞ VERİR?
SƏNİN BƏTNİNDƏ İKİ MİLLƏT VAR, SƏNİN QARNINDAN İKİ XALQ ÇIXACAQ. BİR XALQ O BİRİ XALQDAN GÜCLÜ OLACAQ, BÖYÜYÜ KİÇİYİNƏ QULLUQ EDƏCƏK.
BUDUR, İLK OĞLUN DÜNYAYA GƏLDİ: ONUN DƏRİSİ QIRMIZI VƏ TÜKLÜDÜR!
ONUN ADINI ESAV [1] QOYDULAR.
1 ESAV "TÜKLÜ" DEMƏKDİR, ANCAQ ONU HƏM DƏ "EDOM" ADLANDIRIRDILAR, YƏNİ, "QIRMIZI".
İNDİ ONUN QARDAŞI DOĞULUR. O, ƏLİ İLƏ ESAVIN TOPUĞUNDAN TUTUB!
ONUN ADINI YAQUB [2] QOYDULAR.
2 YAQUB ADININ MƏNASI BELƏDİR: "TOPUQDAN TUTAN", YAXUD "ALDADAN".




YARADILIŞ 25:27-34


ÖLKƏDƏ ACLIQ OLDU. İSHAQ FİLİŞTLİLƏRİN PADŞAHI AVİMELEKİN YANINA GETDİ. RƏBB ONA GÖRÜNÜB MİSİRƏ GETMƏMƏYİ DEDİ.
BU TORPAQDA QAL. ATAN İBRAHİMƏ İÇDİYİM ANDI YERİNƏ YETİRƏCƏYƏM VƏ SƏNƏ HƏR ŞEYİ VERƏCƏYƏM.
NƏSLİNİ GÖYDƏKİ ULDUZLAR QƏDƏR ÇOXALDACAĞAM. YER ÜZÜNÜN BÜTÜN MİLLƏTLƏRİ SƏNİN NƏSLİNİN VASİTƏSİLƏ XEYİR-DUA ALACAQ.
SƏNİNLƏ OLAN QADIN KİMDİR?
BACIMDIR, BİZİMLƏ SƏYAHƏT EDİR.
İSHAQ ATASI İBRAHİMİN ETDİYİ EYNİ SƏHVİ TƏKRAR ETDİ. O, ALLAHIN ONLARIN QEYDİNƏ QALACAĞINA ETİBAR ETMƏDİ.
?!?
SƏN NƏ ETDİN?
AZ QALMIŞDI Kİ, XALQDAN BİRİ SƏNİN ARVADINLA YATSIN. BELƏCƏ, BİZİ GÜNAHA BATIRACAQDIN.
QADIN ƏSLİNDƏ SƏNİN ARVADINDIR!
AVİMELEK BÜTÜN XALQA ELAN ETDİ: İSHAQA VƏ ONUN ARVADINA TOXUNAN MÜTLƏQ ÖLDÜRÜLƏCƏK.


LAKİN ALLAH İSHAQA O QƏDƏR XEYİR-DUA VERDİ Kİ, ELİMELEK ONA KÖÇMƏYİ ƏMR ETDİ.
YERLİ ÇOBANLAR İSHAQIN NÖKƏRLƏRİ İLƏ SU TƏCHİZATINA GÖRƏ MÜBAHİSƏ EDİRDİLƏR.
NƏHAYƏT, O, BİR QUYU QAZDI Kİ, HEÇ KİM ONA İDDİA ETMƏSİN. QUYUNU “REXOVOT” ADLANDIRDI, ÇÜNKİ ALLAH ONA YER VERDİ.
YENƏ DƏ, ALLAH ONUNLA DANIŞDI VƏ CƏSARƏTLİ OLMAĞI ONA XATIRLATDI.
ALLAH İSHAQ İLƏ OLACAĞINI VƏ NƏSLİNİN SAYINI XEYLİ ÇOXALDACAĞINI SÖYLƏDİ.
ELİMELEK MƏNƏ DÜŞMƏN OLSA DA, YAXINLAŞIR.
RƏBB SİZİNLƏ OLDUĞUNU GÖRDÜK VƏ QORXDUQ.
BİZ HƏMİŞƏ SİZƏ XOŞ MÜNASİBƏT GÖSTƏRMİŞİK, BUNA GÖRƏ DƏ, GƏLİN SÜLH MÜQAVİLƏSİ BAĞLAYAQ.
ÖZ ARAMIZDA AND İÇƏK.
İSHAQ QONŞULARI İLƏ SÜLHDƏ OLSA DA, AİLƏSİNDƏ SÜLH YOX İDİ.
ESAV ÖZ XALQINDAN EVLƏNMƏKDƏN İMTİNA ETDİ, YAXINLIQDA YAŞAYAN BÜTPƏRƏST XALQLARDAN İKİ ARVAD ALDI. BU DA İSHAQ İLƏ RİVQA ÜÇÜN KƏDƏR MƏNBƏYİNƏ ÇEVRİLDİ.


MƏN ARTIQ QOCALMIŞAM, BU GÜN-SABAH ÖLƏCƏYƏM.
GET VƏ MƏNİM ÜÇÜN HEYVAN OVLA. SONRA DA MƏNƏ XOŞLADIĞIM LƏZZƏTLİ YEMƏYİ HAZIRLA VƏ GƏTİR Kİ, YEYİM. ONDA ÖLMƏMİŞDƏN QABAQ MƏN SƏNƏ XEYİR-DUA VERƏRƏM.
EŞİTDİM ATAN ESAVI OV ƏTİ ÜÇÜN GÖNDƏRDİ; ONA XEYİR-DUA VERMƏK İSTƏYİR.
MƏNƏ İKİ KEÇİ GƏTİR, ATANIN XOŞLADIĞI YEMƏYİ BİŞİRƏCƏYƏM.
ONU ATANA VERİB XEYİR-DUANI ALA BİLƏRSƏN.
QARDAŞIM ESAV TÜKLÜ BİR ADAMDIR, MƏN İSƏ TÜKSÜZƏM.
MƏNƏ TOXUNSA LƏNƏTLƏYƏCƏK.
SƏNƏ OLUNACAQ LƏNƏT MƏNƏ GƏLSİN. ANCAQ SÖZÜMƏ QULAQ AS: GET, DEDİYİM ŞEYİ MƏNƏ GƏTİR.




YARADILIŞ 27:14-25


OĞLUM, İNDİ YAXINLAŞ, ATANI ÖP.
BAX OĞLUMUN QOXUSU RƏBBİN XEYİR-DUA VERDİYİ ÇÖLÜN QOXUSU KİMİDİR.
ALLAH SƏNƏ GÖYLƏRİN ŞEHİNİ, TORPAĞIN ŞİRƏ-SİNİ VERSİN.
XALQLAR SƏNƏ QULLUQ ETSİN, ÜMMƏTLƏR SƏNƏ BAŞ ƏYSİN.
SƏNƏ LƏNƏT EDƏNLƏRƏ LƏNƏT GƏLSİN, SƏNƏ XEYİR-DUA VERƏN-LƏR XEYİR-DUA ALSIN.




YARADILIŞ 27:30-40


BU DAŞ QILINCINI BUNDAN ARTIQ İTİLƏYƏ BİLMƏZ. GÖRÜNÜR, ÇOX QAN TÖKMƏYƏ HAZIRLAŞIRSAN.
YOX, TƏKCƏ ALDADAN YAQUBUN.
O Kİ, SƏNİN QARDAŞINDIR!
AZ QALIB. O, MƏNİ BİR DAHA ALDATMAYACAQ.
TEZ OL, YOLA HAZIRLAŞ. SƏNİ QARDAŞIM LAVANIN YANINA GÖNDƏRİRƏM.
MƏNƏ XƏBƏR ÇATIB Kİ, QARDAŞIN QİSAS ALMAĞA HAZIRLAŞIR.
DAHA SONRA, İSHAQIN ÇADIRINDA...
XETLİ QIZLARIN ƏLİNDƏN HƏYATIMDAN BEZDİM.
ƏGƏR YAQUB DA BELƏCƏ BU ÖLKƏNİN QIZLARINDAN – XETLİ QIZLARDAN ÖZÜNƏ ARVAD ALSA, DAHA MƏN NİYƏ YAŞAYIRAM?
YAQUBU MƏNİM YANIMA ÇAĞIR.
OĞLUM, KƏNAN QIZLARINDAN ARVAD ALMA. QALXIB DAYIN LAVANIN QIZLARINDAN ÖZÜNƏ ARVAD AL.
KÜLLİ-İXTİYAR ALLAH SƏNƏ XEYİR-DUA VERSİN, NƏSLİNİ ÇOXALTSIN, ALLAHIN İBRAHİMƏ VERDİYİ TORPAĞI – QƏRİB KİMİ YAŞADIĞIN TORPAĞI İRS OLARAQ ALASAN.



ATAMIN EVİNDƏ SIĞINACAQ TAPA BİLƏRSƏN.
QARDAŞIM LAVAN SƏNƏ NƏ ETMƏK LAZIM OLDUĞUNU GÖS-TƏRƏCƏK.
BELƏLİKLƏ, ONLAR MƏNİM KƏNANLI ARVADLARI-MI BƏYƏNMİRLƏR. BƏLKƏ ÇALIŞSAM İLK OĞULLUQ HAQQIMI BƏRPA EDƏ BİLƏRƏM.
ATASINA İTAƏT GÖSTƏRƏRƏK, YAQUB HARANA VƏ ANASININ AİLƏSİNİN YANINA YOLLANDI.
ORADA O, QARDAŞI ESAVDAN SIĞINACAQ AXTARDI. HƏMÇİNİN, ÖZÜNƏ MÜVAFİQ BİR HƏYAT YOLDAŞI TAPMAĞA ÜMİD EDİRDİ.
ESAV ÜÇÜNCÜ DƏFƏ ARVAD ALDI. BU DƏFƏ O, ƏMİSİ İSMAİ-LİN NƏSLİNDƏN BİR QIZLA EVLƏNDİ. BUNUNLA ATASINI RAZI SALMAĞA VƏ XEYİR-DUA ALMAĞA ÜMİD EDİRDİ.
YAQUB BİR YERDƏ GECƏLƏMƏK ÜÇÜN DAYANDI, BİR DAŞI BALIŞ ƏVƏZİ BAŞININ ALTINA QOYDU.


MƏN BABAN İBRAHİMİN VƏ İSHAQIN ALLAHI RƏBBƏM.
SƏNİN NƏSLİN YERİN TOZU KİMİ ÇOX OLACAQ...
YER ÜZÜNÜN BÜTÜN TAYFALARI SƏNİN VƏ NƏSLİNİN VASİTƏSİLƏ XEYİR-DUA ALACAQ.


MƏN HƏMİŞƏ SƏNİNLƏYƏM, GEDƏCƏYİN HƏR YERDƏ SƏNİ QORU-YACAĞAM.


DOĞRUDAN DA, RƏBB BURADADIR. BU, ALLAHIN EVİNDƏN BAŞQA BİR ŞEY OLA BİLMƏZ, BURA GÖYLƏRİN QAPISIDIR.
BU YERİN ADI DAHA LUZ DEYİL, BET-EL – ALLAHIN EVİDİR.
ƏGƏR BU YOLDA SƏN MƏNİMLƏ OLSAN, LAZIM OLDUĞUNU MƏNƏ VERSƏN, SAĞ-SALAMAT DÖNSƏM, ONDA SƏN MƏNƏ ALLAH OLACAQSAN.
BU SÜTUN ALLAHIN EVİ OLACAQ VƏ MƏNƏ VERƏCƏ-YİN HƏR ŞEYİN ONDA BİRİNİ SƏNƏ VERƏCƏYƏM.


PADDAN-ARAM.
RİVQANIN AİLƏSİNİN YAŞADIĞI TORPAQ.
DOSTLARIM, SİZ HARADANSINIZ?
HARANDAN.
NAXORUN NƏVƏSİ LAVANI TANIYIRSINIZ?
BƏLİ, TANIYIRIQ.
SAĞ-SALAMATDIR?
BƏLİ.
ODUR, QIZI RƏHİLƏ DƏ QOYUNLARLA GƏLİR.
MƏN QOHUMUNAM, BİBİNİN OĞLUYAM.
MƏNİMLƏ GƏL, ATAM ÇOX SEVİNƏCƏK!
ATA! BACIN RİVQANIN OĞLU BİZƏ GƏLİB!


ARTIQ BİR AYDIR Kİ, BURADASAN. QOHUM OLSAN DA, MƏNƏ HAVAYI XİDMƏT ETMƏMƏLİSƏN.
MƏNƏ SÖYLƏ, HAQQIN NƏ OLSUN?
İSTƏDİYİMİ DƏQİQ BİLİRƏM. KİÇİK QIZIN RƏHİLƏ ÜÇÜN...
...SƏNƏ YEDDİ İL XİDMƏT EDƏRƏM.
ONU SƏNƏ VERMƏK BAŞQA ADAMA VERMƏKDƏN DAHA YAXŞIDIR.
VAXTIM ÇATDI; İNDİ ARVADIMI MƏNƏ VER.
DANIŞDIĞIMIZ KİMİ.
RƏHİLƏNİ SEVDİYİNƏ GÖRƏ YEDDİ İL YAQUBUN GÖZÜNƏ BİR NEÇƏ GÜN KİMİ GÖRÜNDÜ.


LAVAN!
MƏNİ ALDATDIN! MƏNƏ VERDİYİN RƏHİLƏ DEYİL, GÖZLƏRİ ZƏİF OLAN LEADIR!
BİZİM YERDƏ KİÇİK QIZI BÖYÜ-YÜNDƏN ƏVVƏL ƏRƏ VERMƏK OLMAZ.
BU TOY HƏFTƏSİNİ BİTİR, RƏHİLƏNİ DƏ SƏNƏ VERƏRƏM. ONUN ÜÇÜN DƏ YANIMDA DAHA YEDDİ İL XİDMƏT ETMƏLİSƏN.
BELƏLİKLƏ, LAVANIN İKİ QIZI YAQUBA OĞULLAR DÜNYAYA GƏTİRDİ.
HAMİLƏ OLA BİLMƏYƏNDƏ İSƏ ÖZ QA-RABAŞLARI BİLHA VƏ ZİLPANI DA ÖVLAD DÜNYAYA GƏTİRMƏK ÜÇÜN VERDİLƏR.
YAQUB ANASININ TORPAĞINDA RİFAHLI OLDU, 11 OĞLU VƏ BİR QIZI DİNA OLDU.


RƏHİLƏ YUSİFİ DÜNYAYA GƏTİRƏNDƏN SONRA YAQUB QAYINATASININ YANINA GETDİ.
MƏNƏ ARVADLARIMI, UŞAQLARIMI VƏ BÜTÜN MÜLKÜMÜ VER Kİ, ÖZ TORPAĞIMA GEDİM.
YANIMDA QAL, ÇÜNKİ SƏNƏ GÖRƏ RƏBBİN MƏNƏ XEYİR-DUA VERDİYİNİ GÖRDÜM. HAQQINI MƏNƏ TƏYİN ET, VERİM.
MƏN GƏLMƏMİŞDƏN ƏVVƏL SƏNİN MALIN AZ İDİ, SONRA İSƏ XEYLİ ÇOXALDI.
İNDİ İSƏ ÖZ AİLƏM ÜÇÜN ÇALIŞMAQ İSTƏYİRƏM.
SƏNƏ NƏ VERİM?
MƏNƏ YALNIZ XALLI, ZOLAQLI QOYUNLARI VƏ QARA QUZU İLƏ KEÇİNİ VER.
HAQQIM BU OLSUN. BAŞQA HEYVANLAR SÜRÜDƏ TAPILSA, OĞURLANMIŞ SAYILSIN.
RAZIYAM.
LAVAN ÖZ OĞULLARINA BU HEYVANLARI AYIRMAĞI VƏ YAQUBDAN ÜÇ GÜNLÜK YOL QƏDƏR UZAQLAŞDIRMAĞI TAPŞIRDI.




YARADILIŞ 30:37-31:1


ATANIZIN VƏ QARDAŞLARINIZIN MƏNƏ MÜNASİBƏTİ ƏVVƏLKİ KİMİ DEYİL.
ATANIZ MƏNİ ALDATDI VƏ HAQQIMI ON DƏFƏ DƏYİŞDİRDİ, AMMA ALLAH ATANIZIN SÜRÜSÜNÜ ALIB MƏNƏ VERDİ.
ALLAH ATA-NIZIN ETDİKLƏRİNİN HAMISINI GÖRDÜ. İNDİ İSƏ ALLAH TORPAĞI-MA QAYITMAĞIMI İSTƏYİR.
BURADA ARTIQ BİZƏ YER YOXDUR, BİZƏ YAD KİMİ BAXIRLAR.
ALLAHIN SƏNƏ SÖYLƏDİYİ KİMİ ET, BİZ SƏNİNLƏYİK.
LAVAN QOYUNLARINI QIRXMAĞA GEDƏNDƏ YAQUB ÖZÜNƏ MƏXSUS OLAN HƏR ŞEYİ GÖTÜRÜB QAÇDI.
RƏHİLƏ İSƏ ATASININ EV BÜTLƏRİNİ DƏ GÖTÜRDÜ.


ATA, NÖKƏRLƏR DEYİR Kİ, ÜÇ GÜN ƏVVƏL YAQUB BACILARIMIZI VƏ BÜTÜN MÜLKÜNÜ GÖTÜRÜB QAÇDI.
TEZ, QARDAŞLARINI VƏ BÜTÜN QOHUMLARI ÇAĞIR.
SÜRÜSÜ ÇOX BÖYÜKDÜR. ONU ÖTƏ BİLƏCƏYİK.
ÖZÜNÜ GÖZLƏ, YAQUBA NƏ YAXŞI, NƏ DƏ PİS SÖZ DE.
ATANIZ BİZİ TAPDI.
ATAM ÇOX İNADKARDIR.
NƏ ÜÇÜN GİZLİCƏ QAÇIB MƏNİ ALDATDIN?
MƏNİ NƏVƏLƏRİMLƏ QIZLARIMI ÖPMƏYƏ QOYMADIN.
ALLAHIN SƏNİNLƏ MÜLAYİM DANIŞMAĞI MƏNƏ TAPŞIRDI.
QORXUB DÜŞÜNDÜM Kİ, QIZLARINI ZORLA MƏNDƏN ALARSAN.
AĞILSIZCASINA RƏFTAR ETMİSƏN.
BƏS BÜT ALLAHLARIMI NİYƏ OĞURLAYIB APARIRSAN?
BÜT ALLAHLARINI KİMİN YANINDA TAPSAN, O SAĞ QALMAYACAQ.
YAQUB ARVADININ BÜTLƏRİ GÖTÜRDÜYÜNÜ BİLMİRDİ.


HƏ, BÜTLƏR HARADADIR?
ONLARI TAPACAĞAM.
RƏHİLƏ BÜTLƏRİ GİZLƏDƏRƏK ÜSTÜNDƏ OTURDU.
BAĞIŞLA, ATA. HÜZURUNDA QALXA BİLMİRƏM. QADIN ADƏTİNƏ MÜBTƏ-LAYAM.
BÜTÜN ŞEYLƏRİMİ YOXLADIN, BÜTÜN EV ŞEYLƏRİNDƏN NƏ TAPDIN?
ÖTƏN İYİRMİ İL SƏNİN YANINDA İŞLƏDİM, VƏHŞİ HEYVANLARIN PARÇA-LADIĞI HEYVANIN ZƏRƏRİNİ ÖZÜM ÇƏKƏRDİM. GÜNAHIM VƏ TƏQSİRİM NƏDİR Kİ, MƏNİ BELƏ TƏQİB EDİRSƏN?
ALLAH ƏZABIMI GÖRDÜ VƏ DÜNƏN SƏNƏ XƏBƏRDAR-LIQ ETDİ.
QIZLAR MƏNİM QIZLARIM, UŞAQLAR MƏNİM UŞAQLARIM, SÜRÜLƏR DƏ MƏNİMDİR. ANCAQ GƏL BİR-BİRİMİZƏ ƏHD EDƏK.
BELƏLİKLƏ, BU İKİ KİŞİ BİR SÜTUNÜ ŞAHİD KİMİ QURDULAR Kİ, PİSLİK ETMƏK ÜÇÜN BİR-BİRLƏRİ-NİN TƏRƏFİNƏ KEÇMƏYƏCƏKLƏR.
SONRA BUNUN MÜNASİ-BƏTİLƏ ONLAR BÖYÜK ZİYAFƏT ETDİLƏR.
NÖVBƏTİ GÜN LAVAN SƏHƏR TEZDƏN QALXIB NƏVƏLƏRİNİ VƏ QIZLARINI ÖPDÜ, ONLARA XEYİR-DUA VERDİ. SONRA ÖZ YERİNƏ QAYITDI.




YARADILIŞ 32:1-21


YAQUB HAMINI ÇAYIN O BİRİ TƏRƏFİNƏ KEÇİRTDİ VƏ TƏK QALDI.
BÜTÜN GECƏ YAQUB BİR ŞƏXSLƏ GÜLƏŞDİ.
BİR ÇOXLARI BUNU BƏDƏNDƏ YER ÜZÜNƏ GƏLMƏZDƏN ƏVVƏL MÖVCUD OLAN İSA MƏSİH HESAB EDİRLƏR.
DAN YERİ SÖKÜLƏNDƏ ŞƏXS YAQUBUN BUDUNUN OYNAĞINA ZƏRBƏ VURDU VƏ OYNAQ ZƏDƏLƏNDİ.
BURAX, GEDİM, ÇÜNKİ SƏHƏR AÇILIR.
MƏNƏ XEYİR-DUA VERMƏSƏN, SƏNİ BURAXMARAM.
ARTIQ SƏNƏ YAQUB DEYİL, İSRAİL DEYİLƏCƏK, ÇÜNKİ SƏN ALLAHLA VƏ İNSANLARLA GÜLƏŞİB ÜSTÜN GƏLMİSƏN.
YAQUB O YERİN ADINI PENİEL – "ALLAHIN ÜZÜ" QOYDU, ÇÜNKİ DEMİŞDİ: «ALLAHI ÜZ-ÜZƏ GÖRDÜM VƏ SALAMAT QALDIM».


QARDAŞIM, NƏHAYƏT Kİ, SƏNİ GÖRDÜM!
BUNLAR SƏNİN NƏYİNDİR?
ALLAHIN SƏNİN QULUNA LÜTF ETDİYİ UŞAQLARDIR.
ƏVVƏL CARİYƏLƏRLƏ UŞAQLARI YAXINLAŞIB TƏZİM ETDİLƏR.
SONRA LEA İLƏ UŞAQLARI YAXINLAŞIB TƏZİM ETDİLƏR.
AXIRDA İSƏ YUSİFLƏ RƏHİLƏ VƏ YAQUB YAXIN-LAŞIB TƏZİM ETDİLƏR.






YARADILIŞ 33:8-20


YAQUBUN QIZI DİNA O ÖLKƏNİN QIZLARINI GÖRMƏYƏ ÇIXDI. XAMORUN OĞLU ŞEKEM ONU GÖRDÜ.
QIZI APARIB ONUNLA YATDI VƏ ONU ZORLADI.
QIZIM, DİNA, NƏ BAŞ VERDİ?
OĞLUMUN ÜRƏYİ QIZINIZ DİNAYA BAĞLANDI. ONUNLA EVLƏNMƏK İSTƏYİR.
O BACIMIZIN ƏXLAQINI POZDU!
O, BİZİ RÜSVAY ETDİ!
OĞLUM ŞEKEMİN ÜRƏYİ QIZINIZA BAĞLANIB.
LÜTFƏN... BURADA QALIN, CAVANLARI EVLƏNDİRİB QOHUM OLAQ.
BACIMIZI SÜNNƏTSİZ BİR ADAMA ƏRƏ VERƏ BİLMƏRİK.
BÜTÜN KİŞİLƏRİNİZ SÜNNƏT EDİLİB BİZİM KİMİ OLMALIDIRLAR.


XAMOR VƏ OĞLU ŞEKEM RAZI OLUDLAR. ÖZ ŞƏHƏRLƏRİNİN ADAMLARINA DA YAQUBUN AİLƏSİ İLƏ EVLANMƏK ÜÇÜN SÜNNƏT OLUNMAĞIN GƏRƏK OLDUĞUNU İZAH ETDİLƏR.
ÜÇ GÜN SONRA DİNANIN QARDAŞLARI – YAQUBUN İKİ OĞLU ŞİMEON VƏ LEVİ QİSAS ALDILAR.
ADAMLAR HƏLƏ DƏ AĞRI ÇƏKƏN ZAMAN ONLAR HÜCUM EDİB XAMOR VƏ OĞLU ŞEKEM DAXİL OLMAQLA, ŞƏHƏRDƏKİ BÜTÜN KİŞİLƏRİ ÖLDÜRDÜLƏR.
ŞƏHƏRİ QARƏT ETDİLƏR.
SIZ NƏ ETDINIZ?
BIZ SAYCA AZIQ, ÖLKƏDƏ YAŞAYANLAR BIRLƏŞIB BIZI QIRSALAR, BÜTÜN AILƏMIZ HƏLAK OLACAQ.
BƏS BIZIM BACIMIZLA BIR FAHIŞƏ KIMI RƏFTAR ETMƏK OLARMI?
ONLAR PAYLARINI ALDILAR.


ALLAHIN MƏSLƏHƏTİ İLƏ YAQUB BET-ELƏ GETDİ. QARDAŞI ESAVIN ƏLİNDƏN QAÇANDA ALLAH ÖZÜNÜ ORADA YAQUBA ZAHİR ETMİŞDİ.
YANINIZDA OLAN ÖZGƏ BÜT ALLAHLARINI ATMALIYIQ VƏ ALLAHIN QARŞISINDA ÖZÜMÜZÜ PAK ETMƏLİYİK.
ONLAR YANLARINDA OLAN BÜTÜN ÖZGƏ BÜT ALLAHLARINI VƏ QULAQLARINDAKI SIRĞALARI YAQUBA VERDİLƏR. YAQUB BUNLARI ŞEKEM YAXINLIĞINDA OLAN PALIDIN ALTINDA BASDIRDI.
YAQUB ALLAHA İBADƏT ETMƏK ÜÇÜN BİR QURBANGAH DÜZƏLTDİ. ALLAH ƏTRAF ŞƏHƏRLƏRİN SAKİNLƏRİNİ DƏHŞƏTƏ SALMIŞDI VƏ BUNA GÖRƏ DƏ ONLAR YAQUBUN OĞULLARINI TƏQİB ETMƏDİLƏR.
YAQUB BU YERİN ADINI BET-EL (ALLAHIN EVİ) QOYDU, ALLAH ORADA ONUNLA DANIŞMIŞDI.



ONLAR BET-ELDƏN YOLA DÜŞDÜLƏR. EFRATA ÇATANA YAXIN RƏHİLƏ DOĞDU. ONUN DOĞUŞU AĞIR OLDU. BİR OĞLU DÜNYAYA GƏTİRƏNDƏN SONRA ÖLDÜ.
RƏHİLƏ OĞLUNUN ADINI BEN-ONİ (KƏDƏRİMİN OĞLU) QOYDU.
ANCAQ ATASI ONUN ADINI BİNYAMİN (SAĞ ƏLİMİN OĞLU) QOYDU.
YAQUB KƏNAN TORPAĞINA QAYIDANDAN SONRA ATASI İSHAQ VƏFAT ETDİ.
OĞULLARI ESAV VƏ YAQUB ONU VALİDEYNLƏRİNİN YANINDA DƏFN ETDİLƏR.
ESAV EDOMLULARIN ATASI OLDU.
“EDOM” – “QIRMIZI” SÖZDƏN GƏLİR.
BU, TƏKCƏ ESAVIN TÜKLƏRİNİN QIRMIZI RƏNGDƏ OLDUĞUNA GÖRƏ DEYİL. HƏMÇİNİN, ONUN YAŞADIĞI TORPAQDA QIRMIZI QUM DAŞI ÇOX İDİ.
YAQUB ATASININ YAŞADIĞI YERDƏ, KƏNAN TORPAĞINDA QALIB YAŞADI.